# İnqilab uğrunda fədakarlıq göstərmiş əlil və veteranlara minnətdarlıq məqsədilə nümayəndə heyətlərinin ezamı - 27 /Jul/ 2009

Həzrət Əbulfəzl Abbasın (ə) mübarək doğum günü və Veteranlar gününə təsadüf edən bir vaxtda İran İslam İnqilabının Ali Məqamlı Rəhbəri Həzrət Ayətullah Xamenei Tehran şəhərinin müxtəlifməntəqələrində yaşayanbir sıra əlil və veteranlara baş çəkmək üçün Huccətül-İslam vəl-muslimin Rəhimiyan, Təqəvi və İbrahimi cənablarının başçılığı ilə üç nümayəndə heyətini ezam etmişdir.Nümayəndə heyətlərinin üzvləri əlil və veteranlarla söhbət etmiş, onların həyat şəraiti, gündəlik işləri, qayğı və problemləri ilə tanış olmaqla yanaşı İslam İnqilabı uğrunda həyatını riskə ataraq yüksək fədakarlıq göstərmiş bu insanlara öz təşəkkür və qədirdanlıq hisslərini ifadə etmişlər.